*Beynəlxalq Metafizika Mərkəzi*
*Metafizika jurnalı*
*2021, cild 4, say 1, sıra 13*

*DOI 10.29228/metafizika.*
*ISSN 2616-6879 (Print)*
*ISSN 2617-751X (Online)*

УДК 342.7.
KBT 91.9:7
http://dx.doi.org/10.29228/metafizika.28

*Zaur MƏMMƏDOV[*]*
*(Azərbaycan)*

*AMEA, Elm Tarixi İnstitutu*

# Elmi cəmiyyətlərin fəaliyyətinin hüquqi tənzimlənməsi

***Xülasə***

*Müəllif məqalədə göstərir ki, hər bir elmi cəmiyyətin fəaliyyətinin kökündə elm durur. Elm insanın intellektual fəaliyyətinin ən mürəkkəb sahəsidir. Elm tarixən dindən, incəsənətdən və təhsildən sonra yaranmışdır. Onun təşəkkülü və intellektual fəaliyyət sahəsi kimi formalaşmasına ilk növbədə təhsil (mədrəsə, orta məktəb və ali məktəb təhsili) böyük təsir göstərmişdir. Azərbaycan Respublikasında elm öz strukturuna və formasına görə keçmiş SSRİ-nin bəzi cəhətlərini hələ də özündə ehtiva etməkdədir.*

*Praktika şəhadət verir ki, elmi cəmiyyətlərdə elmin əsas funksiyası gerçəklik haqqında obyektiv biliklərin işlənib hazırlanması və nəzəri cəhətdən sistemləşdirilməsindən ibarətdir. Elmi cəmiyyətlərdə elmi fəaliyyətin başlıca məqsədi yeni biliklərin əldə olunmasıdır. Müasir elmi cəmiyyətlərdə diqqəti cəlb edən fenomenal hadisələrdən biri elm mədəniyyətinin yüksək və ciddi səviyyədə təşkilidir. Ümumiyyətlə, hər hansı elmi kollektivin mədəniyyətinin təşkili yaradıcılıq prosesinin əsasıdır.*

[*] AMEA, "Elm Tarixi" İnstitutunun baş elmi işçisi, hüquq üzrə elmlər doktoru.
e-mail: zaur1965@gmail.com
https://orcid.org/0000-0003-3953-0175

*Elmi cəmiyyətlərin böyük əksəriyyəti qeyri-kommersiya təşkilatlarından ibarətdir. Onların fəaliyyəti özündə, bir qayda olaraq, yeni elmi nəticələrin, tədqiqatların və elmi nəşrlərin təqdim edilməsi və müzakirəsi üçün müntəzəm elmi-praktiki konfranslar keçirməkdən, habelə müəyyən elmi fənlər üzrə elmi jurnalların çapına sponsorluq etməkdən ibarətdir.*

*Elmi cəmiyyətin təşkili üçün alimin cəmiyyətdə kifayət qədər yüksək statusa malik olması vacibdir. Elmi məktəb daxilində peşəkarlıq elmi nüfuzla yanaşı elmi gəlir də gətirməlidir.*

***Açar sözlər**: Konstitusiya, elm, cəmiyyət, maddə, qanun.*

## *Giriş*

Elmi cəmiyyət (alim cəmiyyəti və ya elmi assosiasiya) – bu, elmin inkişafına kömək etmək üçün mövcud olan (alimlər və elmi mütəxəssislər, peşəkar ixtisaslı kadrlar tərəfindən yaradılan) təşkilatdır. Bundan başqa, elmi cəmiyyət akademik fənlərin və ya peşələrin, yaxud elmi fənlər və peşə ilə bağlı olan qrupların tərəqqisinə və yayılmasına xidmət edir. Bu cəhətdən elmi cəmiyyətlər məqsədyönlü fəaliyyət göstərir və öz elmi fəaliyyətlərini cəmiyyətdə qüvvədə olan hüquq normaları əsasında qurur. Deməli, elmi cəmiyyətlər eyni zamanda da sosial sistemlərdən ibarətdir.

Sosial sistemin əsasında sosial struktur durur. Sosial struktur bu baxımdan istənilən cəmiyyətin, o cümlədən elmi cəmiyyətin mərkəzi elementidir. Sosiologiya ədəbiyyatında qeyd edildiyi kimi, sosial struktur təşkilatın iştirakçıları arasındakı qarşılıqlı münasibətlərin tənzimləyicisi kimi çıxış edir (Vahidov, Ağayev 2008: 75).

Elmi cəmiyyətin iştirakçıları onun üzvləridir. Üzvlük ciddi nəzarət altında baş verən prosesdir. Bununla belə, elmi cəmiyyətlərdə üzvlük hər bir ixtisaslı alim üçün həm açıq, həm də məhdud (ancaq özünün ixtisaslı elmini təsdiq etmiş alimlər üçün) ola bilər. Elmi cəmiyyətlərdə üzvlüyün son dərəcə ciddiliyi də məhz onun məhdudluğu ilə izah oluna bilər.

Bir sıra elmi cəmiyyətlərdə üzvlük ancaq seçkilər yolu ilə qazanıla bilər. Bunu üzvlüyün demokratik üsulu da hesab etmək olar. Seçkilər adətən, gizli səsvermə yolu ilə keçirilir. Elmi cəmiyyətlərdə yerlər qabaqcadan müəyyənləşdirilir, namizədlər üzvlüyün həqiqi şərtləri haqqında əvvəlcədən məlumatlandırılır və nəhayət, seçkilərin legitim qaydada keçirilməsi üçün kvorumun, yəni yetərsayın olması mühüm əhə-

miyyət kəsb edir. Seçicilər qismində yalnız həmin elmi cəmiyyətin alimləri çıxış edirlər, belə ki, elmi cəmiyyətin üzvü olmayan mütəxəssislərin belə seçkilərdə seçici kimi iştirakı yolverilməzdir.

Adından göründüyü kimi, hər bir elmi cəmiyyətin fəaliyyətinin kökündə elm durur. Elm insanın intellektual fəaliyyətinin ən mürəkkəb sahəsidir. Elm tarixən dindən, incəsənətdən və təhsildən sonra yaranmışdır. Onun təşəkkülü və intellektual fəaliyyət sahəsi kimi formalaşmasına ilk növbədə təhsil (mədrəsə, orta məktəb və ali məktəb təhsili) böyük təsir göstərmişdir. Bir sözlə, təhsil elm ola bilməz.

## *Elmi biliyin tarixi*

Elm çox qədim tarixə malikdir. Elmi biliyin ilk rüşeymlərinə eramızdan əvvəl V əsrdə Qədim Misir və Qədim Yunanıstan cəmiyyətlərində təsadüf olunmuşdur. Onun vətən tarixi isə daha qədimlərə - Qədim Şumer gil lövhələrində həkk edilmiş yazılara aparıb çıxarır. Qədim şumerlərin etikasını "birinci mənəvi ideallar" kimi izah edən ABŞ şumeroloqu S.Kramer yazır: "Şumer mütəfəkkirləri öz dünyagörüşlərinə uyğun olaraq insana və onun zəkasına o qədər də inanmırdılar. Onların təbirincə, insan palçıqdan yoğrulmuş və ümumiyyətlə, allahlar tərəfindən ona görə yaradılmışdır ki, onlara yemək və içmək gətirsinlər... Şumerlər hesab edirdilər ki, ictimai və mədəni inkişafın yavaş və çətin təkamülü nəticəsində meydana gəlmiş bütün əxlaqi keyfiyyətlər və məziyyətlər allahlar tərəfindən bəxş edilmişdir. Onların fikrincə, hər şeyə Allahlar qabaqcadan qərar verir *(deməli, elmə və elmi fəaliyyətə də - kursiv bizimdir)*, insan isə yalnız Allahların göstərişləri ilə hərəkət edir" (Kramer 2009: 130).

Elmin bu günkü çiçəklənmə səviyyəsinə qalxması ancaq yeni dövrdə - XVI-XVII əsrlərdə baş vermiş, bu isə elmi-texniki tərəqqi ilə və sənaye inqilabı ilə sıx bağlı olmuşdur. Bu müddəa müasir elmi cəmiyyətlərə çoxdan və yaxşı məlumdur. Edilən kəşflər və ixtiralar, sənaye sahələrində elmi-texniki göstərişlərin müvəffəqiyyətli tətbiqi elmi indiki inkişaf səviyyəsinə qaldırmışdır.

Ən qədim elmi cəmiyyət və akademiyalara aşağıdakıları aid etmək olar:

1. Sodalitas Litterarum Vistulana (əsası 1488-ci ilə yaxın qoyulmuşdur);
2. Deu Linçeinin Milli Akademiyası (əsası 1603-cü ildə qoyulmuşdur);
3. Fransız Akademiyası (əsası 1635-ci ildə qoyulmuşdur);

4. Leopoldinin elmi cəmiyyəti (əsası 1652-ci ildə qoyulmuşdur);

London kral cəmiyyəti (əsası 1660-cı ildə qoyulmuşdur).

Yuxarıda adları çəkilən cəmiyyət və akademiyaların üzvləri içərisində səyyahlar çoxluq təşkil etmişlər. Məhz həmin alimlər öz səyahətləri zamanı müxtəlif ölkələrin elm və mədəniyyət nümunələrini məharətlə əldə etmiş və bundan başqa, müşahidə etdikləri elmi hadisə və prosesləri qələmə almışlar. Həmin nümunələr bu gün də Luvr və London muzeylərinin (o cümlədən elmi kitabxanalarının) nadir inciləri hesab olunur. Təəssüf ki, bunu Şərq ölkələrinin alim və səyyahları barəsində söyləmək qeyri-mümkündür.

Elə bir fakt da məlumdur ki, elmi cəmiyyətlər son dərəcə ümumi xarakterə malik ola bilər. Belə elmi cəmiyyətlər ona görə ümumi xarakter daşıyan təşkilat hesab olunurlar ki, onlar müvafiq elmi fənn üçün spesifik olan elmin inkişafına kömək edirlər. Onlara aşağıdakıları aid etmək olar:

1. Amerikanın Modern Lənqviç Assosiasiyası (Modern Language Association);
2. Londonun Kral entimoloji cəmiyyəti.

Bu elmi cəmiyyətlərin spesifikliyini əks etdirən bir cəhət də ondan ibarətdir ki, onlar müəyyən elm sahəsi üçün spesifik olan tədqiqatlarla məşğul olurlar və bu səbəbdən də onların əldə etdikləri elmi nəticələr ümumi xarakterə malikdir.

Elmi cəmiyyətlər içərisində elə təşkilatlar da mövcuddur ki, onlar üzvlüyü ancaq maraqlı olan aşağıdakı şəxslər üçün nəzərdə tuturlar:

a) konkret elmi mövzuda maraqlı olanlar üçün;
b) özü üçün konkret elmi fənni tədqiqat sahəsi kimi seçənlər üçün.

Qeyd etmək lazımdır ki, bu qəbildən olan elmi cəmiyyətlərin sayı azdır və belə cəmiyyətlər üzvlüyə qəbul etdikləri tədqiqatçılardan üzvlük haqqı tutması şərtilə fəaliyyət göstərirlər. Deməli, üzvlük haqqı ödəməyənlər həmin cəmiyyətdə üzvlüyə qəbul oluna bilməzlər.

### *Bəs elmin əsas funksiyası nədən ibarətdir?*

Praktika şəhadət verir ki, elmi cəmiyyətlərdə elmin əsas funksiyası gerçəklik haqqında obyektiv biliklərin işlənib hazırlanması və nəzəri cəhətdən sistemləşdirilməsindən ibarətdir. Elmi cəmiyyətlərdə elmi fəaliyyətin başlıca məqsədi yeni bilik-

DOI 10.29228/metafizika.
ISSN 2616-6879 (Print)
ISSN 2617-751X (Online)

lərin əldə olunmasıdır. Təhsilin məqsədi insanların yeni nəsillərinə, yəni gənclərə mükəmməl bilik verməkdir. Əgər elmi fəaliyyətin məqsədi yoxdursa, deməli, təhsilin də məqsədi mövcud deyil. Bu mənada elm mühüm təhsildir və müasir elmi cəmiyyətlər öz fəaliyyətlərini məhz bu istiqamətə yönəltmişdir. Sosiologiya ədəbiyyatında göstərilir ki, Avropa ölkələrinin əksəriyyətində iki prosesə xüsusi diqqət yetirilməsinə səy göstərilir:

1. yeni biliyin əldə olunması;
2. yeni biliyin yayılması (Vahidov, Ağayev 2008: 224).

Məhz buna görə Qərb universitetləri və elmi assosiasiyaları hər iki funksiyanı – elmi və pedaqoji funksiyaları yerinə yetirirlər. Nəzərə almaq zəruridir ki, universitet professoru tədrisdən savayı elmi cəmiyyətlərdən birində eyni vaxtda həm də elmi tədqiqatlarla məşğul olur və pedaqoq-praktik qismində fəaliyyət göstərir.

Keçmiş SSRİ-də (o cümlədən, qismən də Azərbaycanda) başqa bir ənənə təşəkkül tapmışdı. Belə ki, elmi fəaliyyətlə alimlərin bir qismi, təhsillə isə digər qismi məşğul olurdu. Bu gün Azərbaycanda böyük elmlə Azərbaycanın Milli Elmlər Akademiyası məşğul olur, təhsillə isə Azərbaycan Respublikasının Təhsil Nazirliyi məşğuldur. Orta məktəblərin, orta-ixtisas və ali təhsil müəssisələrinin əksəriyyəti məhz Azərbaycan Respublikasının Təhsil Nazirliyinin tabeliyindədir.

## *Elmi cəmiyyətlərin fəaliyyətinin sosiologiyası*

Müasir elmi cəmiyyətlərdə diqqəti cəlb edən fenomenal hadisələrdən biri elm mədəniyyətinin yüksək və ciddi səviyyədə təşkilidir. Ümumiyyətlə, hər hansı elmi kollektivin mədəniyyətinin təşkili yaradıcılıq prosesinin əsasıdır.

Elmi cəmiyyətlərin fəaliyyətinin sosiologiyası, eləcə də hüquqi cəhətdən tənzimlənməsi elmi cəmiyyətlərin bir qisminin qapalı, muxtar təşkilat olması ilə səciyyələndirilir. Bununla əlaqədar elmi ədəbiyyatda qeyd edilir ki, ətraf xarici mühit – bu, təkcə elmin fəaliyyət sistemini əhatə etmir, o, həm də ümumsivil prosesləri ölkədə elmin inkişafına istiqamətləndirir, elmi fəaliyyət prosesində meydana çıxmaq təhlükəsi yaradan boşluqları aradan qaldırır. Dünya ölkələri arasında qarşılıqlı əlaqələrin sürətlə artdığı bir şəraitdə elmi cəmiyyətlərin fəaliyyəti önəmli yerlərdən birini tutur. Elm təkcə bilavasitə elmin özünə deyil, eyni zamanda insanların sosial vəziyyətinin yaxşılaşmasına, dövlətdə ümumi mədəniyyətin fasiləsiz olaraq tərəqqi etmə-

sinə və ümumi həyat səviyyəsinin yüksəlməsinə kömək edir (Kravchenko 2008: 337).

Elmi cəmiyyətlərin əsasında duran fəaliyyətin təşkilatı tipi (o cümlədən həmin fəaliyyətin hüquqi tənzimlənməsi) hər bir alimin öz yaradıcılıq səylərinin stimullaşdırılmasını nəzərdə tutur. Müasir şəraitdə bunun üçün texnoloji sxemlərdən, yəni innovasiyalardan geniş istifadə olunur ki, bu da elmi cəmiyyətlərin hər bir şöbəsinin və laboratoriyasının yarımmuxtar rejimdə işləməsinə yardım göstərir. Belə şəraitdə hər bir elmi cəmiyyətin konkret layihə üzrə fəaliyyəti, müvəqqəti məqsədli qrupların və ya daimi kompleks qruplarının fəaliyyəti başa düşülür. A.İ.Kravçenko və İ.O.Tyurinanın qeyd etdiyi kimi, bu da öz növbəsində üfüqi, qeyri-formal və yanakı əlaqələrin yaradılması prosesində böyük imkanların reallaşdırılmasını təmin edir (Kravchenko, Tyurina 2004: 339). Bundan başqa, xüsusi əlaqələndiricilər, məqsədli və kompleks kollektivlər, muxtar qruplar, layihə üzrə rəhbərlər nüfuzun planlaşdırılması, informasiya şəbəkələrinin təşkil edilməsi kimi əlaqələndirmə elementlərinin tətbiqinə əlverişli şərait yaradır.

Beləliklə, yuxarıda qeyd edilən fəaliyyət nəticəsində elmi cəmiyyətlərdə təşkilatı mədəniyyətin yaranması üçün əsaslar yaranır. Bunun da sayəsində elmi tədqiqatların dairəsi daha da genişlənir, elmi tədqiqatların ən yeni metodlarından səmərəli surətdə istifadə olunur və bütövlükdə elmi biliklərin yayılması və yeni biliklərin əldə olunması üçün münbit şərait formalaşdırılır. Təşkilati mədəniyyət elmi cəmiyyət üzvlərinin dünyagörüşünü və yüksək məsuliyyətini "stimullaşdırır", sosial müdafiənin yaranmasına kömək edir. Çünki belə elmi istiqamət elmi cəmiyyətlərdə mühüm təkliflərin mürəkkəb kompozisiyasından ibarətdir. Bu, digər tərəfdən elmi cəmiyyətlərə üzvlərin qrup halında qəbulunun (seçilməsinin) təşkilinə kompleks halda şərait yaradır.

## *Azərbaycan Respublikasında elmi tədqiqatların səviyyəsi*

Artıq qeyd edildiyi kimi, elm Azərbaycan Respublikasında öz strukturuna və formasına görə keçmiş SSRİ-nin bəzi cəhətlərini hələ də özündə ehtiva etməkdədir. Azərbaycan Milli Elmlər Akademiyası, ali təhsil müəssisələri və sahəvi budaqlar – dövlətin tabeliyi altındadır. Lakin bununla belə, ölkədə mövcud olan elmi atmosfer

şəhadət verir ki, elmi tədqiqatların səviyyəsi indikindən də yüksək olmağa qadirdir. Azərbaycan alimləri elmin bir çox sahələrində (xüsusilə də fizika, riyaziyyat, kimya, tarix, ədəbiyyatşünaslıq, dilçilik sahəsində) son dərəcə məhsuldar fəaliyyət göstərir və bəzi elmi göstəricilərinə görə dünya miqyasında tanınırlar.

Azərbaycan Respublikasında elmi tədqiqatların nisbətən zəif olduğu və elmi cəmiyyətlərin mükəmməl təsir göstərə bilmədiyi sahə - hüquq elminin bəzi sahələridir. Dövlət və hüquq nəzəriyyəsi, mülki hüquq, mülki proses, kriminalistika, ekologiya hüququ, inzibati hüquq və maliyyə hüququ sahəsində tədqiqatçı alimlərimizin sayı çox azdır. Bəzən adı çəkilən sahələrin hər hansı biri üzrə fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcəsi adını almaqdan ötrü iddiaçılar alimləri xarici ölkələrdən dəvət etmək məcburiyyətində qalırlar. Məlumdur ki, bu da onlara böyük maddi vəsaitlər hesabına başa gəlir. Ümid edirik ki, bu vəziyyət ən yaxın gələcəkdə aradan qalxacaqdır.

Yuxarıda qeyd edilən vəziyyətin aradan qaldırılmasına elmi cəmiyyətlər hansı yardımı göstərə bilər? Bu suala cavab vermək bir qədər çətindir. Ən azı ona görə ki, elmi cəmiyyətlərin böyük əksəriyyəti qeyri-kommersiya təşkilatlarından ibarətdir. Onların fəaliyyəti özündə, bir qayda olaraq, yeni elmi nəticələrin, tədqiqatların və elmi nəşrlərin təqdim edilməsi və müzakirəsi üçün müntəzəm elmi-praktiki konfranslar keçirməkdən, habelə müəyyən elmi fənlər üzrə elmi jurnalların çapına sponsorluq etməkdən ibarətdir.

Göstərmək zəruridir ki, elmi cəmiyyətlərin bəzisi öz üzvlərinin elmi fəaliyyətindən dövlət mənafelərini və ya kollektiv (dövlətlərarası) mənafeləri tənzimləyən peşəkar orqan kimi istifadə edirlər. Dünya ölkələrində fəaliyyət göstərən elmlər akademiyalarından fərqli olaraq, elmi cəmiyyətlərdə çalışan alimlər elmin məşhurlarının birliklərini təmsil edirlər. Belə birliklər öz elmi nümayəndələrinin tərkibi etibarilə son dərəcə rəngarəngliyi ilə seçilmişdir. Belə ki, həmin birliklərin nümayəndələri həkimlərdən, səyahətçilərdən, yazıçılardan və digər humanitar elm sahələrinin nümayəndələrindən ibarət olmuşdur. Lakin deyilənləri tarixdə formalaşmış bütün elmi cəmiyyətlərə, yaxud elmi assosiasiyalara və akademiyalara şamil etmək olmaz.

Azərbaycan Respublikasında elm sahəsinə böyük töhfələr vermiş ən qocaman ali məktəb Bakı Dövlət Universitetidir. BDU-nun əsası Azərbaycan Demokratik Cumhuriyyəti tərəfindən 1919-cu ildə qoyulmuşdur. Elmi ictimaiyyət 2019-cu ildə

BDU-nun 100 illik yubileyini böyük təntənə ilə qeyd etdi. Heç də təsadüfü deyil ki, BDU ölkəmizdə fəaliyyət göstərən ali məktəblərin bayraqdarı hesab olunur. Lakin BDU elmi cəmiyyət statusu ilə fəaliyyət göstərmir. O, tədris müəssisəsi olduğuna görə alimlər BDU-da elmi tədqiqatlarla məhdud dairədə məşğul olur və onların elmi yaradıcılığı ümumi səciyyə daşıyır. Bununla belə, BDU-nun elmi işçiləri və professorlarının fəaliyyəti Azərbaycanda elmin inkişafı və elmi fikrin zənginləşməsində, eləcə də elmi kadr və ixtisaslı mütəxəssislər hazırlığında müstəsna rol oynamışdır. Belə bir cəhəti vurğulamaq zəruridir ki, BDU-nun məzunlarının böyük əksəriyyəti ölkənin digər ali tədris müəssisələrinin fəaliyyətində yaxından iştirak etmiş, bir çox mütəxəssis alimlər dünyanın bir sıra ölkələrində öz elmi fəaliyyətini uğurla davam etdirmişdir. Azərbaycanın bu möhtəşəm ali təhsil müəssisəsini bitirmiş elmi mütəxəssislər hazırda ABŞ-da, İranda, İraqda, Türkiyədə və Avropanın digər ölkələrində müvəffəqiyyətlə çalışırlar. Bu da şübhəsiz ki, BDU-nun elmi bazasının möhtəşəmliyi və zənginliyinin nəticəsidir.

Belə bir spesifik cəhəti nəzərə almaq zəruridir ki, elmi cəmiyyətlər özünün ardıcıllarına və şagirdlərinə malik olan görkəmli alimlər ətrafında və onların yaxından iştirakı ilə təşkil edilir. Sosial institutların digər sahələrində olduğu kimi elm sahəsində də ənənələrin rolu böyükdür. Elmi cəmiyyətlər sistemində gerçəkləşdirilən islahatlar, aparılan dəyişikliklər kosmetik xarakter daşıyır. Elmi cəmiyyətdə mövcud olan ənənə elmi məktəb adlanır. Həmin məktəb də öz növbəsində elmdə təşkilati mədəniyyət nümunəsi hesab olunur. Belə təşkilati mədəniyyət elmi cəmiyyətin timsalında zamanın, böyük bir elmi mərhələnin və ruhunun, elmi təfəkkürün yaranmasına xidmət edir. Bu isə özünü insanların dünyagörüşündə, təhsilində və təfəkkür mədəniyyətində təcəssüm etdirir.

Elmi cəmiyyətin təşkili üçün alimin cəmiyyətdə kifayət qədər yüksək statusa malik olması vacibdir. Elmi məktəb daxilində peşəkarlıq elmi nüfuzla yanaşı elmi gəlir də gətirməlidir. Biz hələ ki, Azərbaycanda mükəmməl elmi cəmiyyətin yaradılacağını gözləyirik. Bu boşluğun sonrasının necə olacağını söyləmək asan deyil, çünki elmi kadr potensialında da bəzi boşluqlar mövcuddur. Buna Ermənistanın ölkəmizin ərazisinin 20 faizdən çoxunu işğal etməsi də öz mənfi təsirini göstərmişdir. Çünki ölkəmiz torpaqlarımızın işğal altında qalması ilə heç bir vəchlə barışmayacaq və Azərbaycan xalqı öz qələbəsinə dərindən inanır. Məsələ burasındadır ki, bir çox elm sahələrimizin alimlərini də bu problem çox narahat edir.

DOI 10.29228/metafizika.
ISSN 2616-6879 (Print)
ISSN 2617-751X (Online)

Deməli, optimal çıxış yollarının axtarılması sürətləndirilməlidir. Xarici ölkələrin elmi müəssisələrinin təcrübəsi göstərir ki, belə yollardan biri müəyyən elmi layihələr üzərində işləyən müvəqqəti məqsədli qrupların yaradılmasının vacibliyidir. Məhz bu, ən əlverişli fəaliyyət formalarından biri hesab olunur.

Cəmiyyətin və dövlətin tarixi inkişaf təcrübəsi şəhadət verir ki, elmi təşkilatların mövcud sistemini dağıtmaq asan, yeni sistemi yaratmaq isə xeyli çətindir.

## *Azərbaycan Respublikasının qanunvericilik aktlarında elmi fəaliyyətin təşkili*

14 iyun 2016-cı il tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasında elmi fəaliyyətin təşkili, idarə edilməsi və inkişafı sahəsində dövlət siyasətinin əsas prinsiplərini, elmin və elmi-innovasiya fəaliyyətinin məqsədlərini, elmi fəaliyyət subyektlərinin hüquq və vəzifələrini, elmin maliyyələşdirilməsi mexanizmlərini, elmi nailiyyətlərin stimullaşdırılması və onlardan istifadənin təşkilati-hüquqi əsaslarını müəyyən edən "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir ("Elm haqqında" AR-nın Qanunu 2016: 2). Bu Qanun ölkənin siyasi, iqtisadi, sosial və mədəni inkişafının təmin edilməsi, hər bir Azərbaycan Respublikası vətəndaşının rifahının və elmi səviyyəsinin yüksəldilməsi, yeni biliklərə yiyələnməsi və dünyanı dərk etmək kimi təbii və mənəvi ehtiyaclarının ödənilməsində elmin aparıcı rolunu və vəzifələrini müəyyənləşdirir.

Elm haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, "Elm haqqında" Azərbaycan Respublikasının Qanunundan, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunundan, Azərbaycan Respublikasının elmi fəaliyyət üzrə münasibətləri nəzərdə tutan digər qanunvericilik aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Elm haqqında Azərbaycan Respublikası qanunvericiliyinin əsas məqsədi elmi fəaliyyətlə məşğul olan subyektlərin konstitusiya hüquqlarının təmin edilməsi, qorunması və elm sahəsində mövcud olan münasibətlərin tənzimlənməsinin təşkilati-hüquqi bazasının yaradılmasından ibarətdir.

"Elm haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.4-cü maddəsinə görə, elm dedikdə, hadisələrin və gerçəkliyin mahiyyəti haqqında obyektiv biliklərin və informasiyaların əldə edilməsi, toplanması, sistemləşdirilməsi, işlənməsi, yayılması və tətbiqindən ibarət olan insan fəaliyyəti sahəsi başa düşülür.

"Təhsil haqqında" 19 iyun 2009-cu il tarixli Azərbaycan Respublikası Qanununun 32.3.17-ci maddəsində bildirilir ki, təhsilalanların təhsil müəssisəsinin elmi, ictimai, sosial və mədəni həyatında, elmi cəmiyyətlərin, dərnəklərin, assosiasiyaların, birliklərin və digər təşkilatların yaradılmasında iştirak etmək, eləcə də ölkə və beynəlxalq səviyyəli belə təşkilatlara üzv olmaq hüququ vardır ("Təhsil haqqında" AR-nın Qanunu 2009: 11).

Beləliklə, ifadə olunanları yekunlaşdıraraq aşağıdakı nəticələrə gəlmək olar: Hər bir elmi cəmiyyətin fəaliyyətinin kökündə elm durur. Elmi cəmiyyətlərdə elmin əsas funksiyası gerçəklik haqqında obyektiv biliklərin işlənib hazırlanması və nəzəri cəhətdən sistemləşdirilməsindən ibarətdir. Elmi cəmiyyətlərdə elmi fəaliyyətin başlıca məqsədi yeni biliklərin əldə olunmasıdır. Müasir elmi cəmiyyətlərdə diqqəti cəlb edən fenomenal hadisələrdən biri elm mədəniyyətinin yüksək və ciddi səviyyədə təşkilidir. Elmi cəmiyyətin təşkili üçün alimin cəmiyyətdə kifayət qədər yüksək statusa malik olması vacibdir.

### *Ədəbiyyat siyahısı*

1. "*Elm hagginda*" 14 iyun 2016-ci il tarikhli Azerbaycan Respublikasinin Ganunu. Baki: Ganun, 2016, 12 s.
2. Kramer S.N. *Tarikh Shumerdə bashlanir* / terjume eden Parviz Firudin oghlu Kazimi. Bakı: 2009, 280 s.
3. "*Tehsil haggında*" 19 iyun 2009-cu il tarikhli Azerbaycan Respublikasının Ganunu. Bakı: Ganun, 2009, 14 s.
4. Vahidov F.Q., Aghayev T.B. *Sotsiologiya: Ali mektebler uchun ders vesaiti.* Bakı: Teknur, 2008, 334 s.
5. Kravchenko A.I., Tyurina I.O. *Sotsiiologiya upravleniya: Uchebnoe posobie.* Moskva: Akademicheskiy proyekt, 2004, 1134 s.
6. Kravchenko A.I. *Sotsiologiya: Uchebnik*. Moskva: Prospekt, 2008, 536 s.

**Dr. Zaur Mammadov**

## *Legal Regulation of Scientific Societies*

*(abstract)*

*In the article the author states that science stands at the root of the activity of any scientific society. Science is the most complex field of human intellectual activity. Science historically originated after religion, art and education. Education (madrasa, secondary school and university) had a great influence on its formation and development as a field of intellectual activity. In the Republic of Azerbaijan, due to its structure and form, science still contains some features of the former USSR.*

*Practice shows that the main function of science in scientific societies is to develop and theoretically systematize objective knowledge about reality. The main purpose of scientific activity in scientific societies is to acquire new knowledge. One of the phenomenal events that attracts attention in modern scientific societies is the organization of scientific culture at a high and serious level. In general, the organization of the culture of any scientific team is the basis of the creative process.*

*The vast majority of scientific societies are non-profit organizations. Their activities, as a rule, include holding regular scientific-practical conferences for the presentation and discussion of new scientific results, research and scientific publications, as well as sponsoring the publication of scientific journals on certain scientific disciplines.*

*In order to organize a scientific society, it is important for a scientist to have a high status in society. Professionalism within a scientific school should bring scientific income as well as scientific prestige.*

***Keywords:*** *Constitution, science, society, article, law*

***Др. Заур Мамедов***

## ***Правовое регулирование деятельности научных сообществ***
*(резюме)*

*Автор в статье указывает, что в фундаменте деятельности любого научного сообщества стоит наука. Наука, это самая сложная сфера интеллектуальной деятельности человека. Исторически, наука возникла после религии, искусства и образования. На его становление и формирование как сферы интеллектуальной деятельности, в первую очередь оказало большое влияние (медресе, средняя школа и высшее учебное образование). По своей структуре и форме, наука в Азербайджанской Республике до сих пор содержит некоторые признаки бывшего СССР.*

*Как свидетельствует практика, основной функцией науки в научных сообществах является разработка и теоретическая систематизация объективных знаний о реальности. Главной целью научной деятельности в научных сообществах, является приобретение новых знаний. В современных научных сообществах, одним из привлекающих внимание феноменальных событий, является организация на серьезном и высоком уровне научной культуры.*

*Подавляющее большинство научных обществ составляют некоммерческие организации. Их деятельность, как правило, включает в себя проведение регулярных научно-практических конференций для презентации и обсуждения новых научных результатов, исследований и научных публикаций, а также спонсорства для издания научных журналов по отдельным научным дисциплинам.*

*Для организации научного общества важно, чтобы ученый в обществе имел достаточно высокий статус. Профессионализм в научной школе, должен наряду с научным престижем приносить и научный доход.*

***Ключевые слова:*** *Конституция, наука, общество, статья, закон.*

*Məqalə redaksiyaya daxil olmuşdur: 09.08.2020*
*Təkrar işlənməyə göndərilmişdir: 01.02.2021*
*Çapa qəbul edilmişdir: 10.03.2021*